**AZƏRBAYCAN RESPUBLİKASI İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİLİNİN (OMBUDSMANIN) QONDARMA «DAĞLIQ QARABAĞ RESPUBLİKASI»NIN «OMBUDSMANININ SEÇİLMƏSİ» İLƏ BAĞLI**

**BƏYANATI**

**Bu günlərdə bəzi kütləvi informasiya vasitələrində tanınmamış qondarma «Dağlıq Qarabağ Respublikası»nın «ombudsmanının seçilməsi» xəbəri yayılmışdır.**

**Artıq 20 ildir ki, Ermənistanın Azərbaycana qarşı yürütdüyü işğalçılıq və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ bölgəsində separatçı qüvvələrdən ibarət qanunsuz rejim fəaliyyət göstərməkdədir.**

**Zaman-zaman qondarma rejim tərəfindən beynəlxalq hüququn ümumtanınmış norma və prinsipləri kobud şəkildə pozularaq bir sıra «seçkilər» keçirilmiş, lakin heç bir hüquqi qüvvəyə malik olmayan bu «seçkilər» təbii olaraq dünya birliyi tərəfindən tanınmamış, əksinə aparılan sülh danışıqlarına zərərli bir addım kimi qiymətləndirilmişdir.**

**Bu baxımdan qondarma «Dağlıq Qarabağ Respublikası»nın «ombudsmanının seçilməsi» ilə bağlı qeyri-hüquqi hərəkət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi danışıqlarına zərər yetirmək, uzun illərdən bəri bir milyondan çox azərbaycanlının hüquqlarını pozan və pozmaqda davam edən, hətta bu yaxınlarda Ermənistanda keçirilmiş prezident seçkiləri sonrası öz əhalisinin belə hüquqlarını, xüsusilə yaşamaq hüququnu kobud şəkildə tapdalayan, zorakılıq tətbiq edən Ermənistan dövlətinin bu hərəkətləri ört-basdır etmək, bir daha dünya ictimaiyyətini çaşdırmaq məqsədini daşıyır.**

**Beynəlxalq hüquq nöqteyi nəzərindən Ermənistan Respublikası tərəfindən işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ərazisidir. Azərbaycanın ərazi hüdudları bu gün beynəlxalq birlik və beynəlxalq təşkilatlar tərəfindən tanınır. İşğal olunmuş Azərbaycan torpaqlarının boşaldılması və işğala son qoyulması barədə BMT-nin Təhlükəsizlik Şurası tərəfindən məlum dörd Qətnamənin qəbul olunmasına baxmayaraq əzəli topaqlarımızın işğalı bu gün də davam edir.**

**Məlumdur ki, Ermənistan Avropa Şurasının üzvüdür və bu təşkilat qarşısında hüquqi öhdəliklər götürmüşdür. Avropa Şurası Parlament**

Assambleyasının 2005-ci il tarixli 1416 saylı Qətnaməsi və 1690 saylı tövsiyəsi Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələr tərəfindən idarə edilməsini və Azərbaycan torpaqlarının erməni qüvvələri tərəfindən işğalını bir daha təsdiqləmiş BMT Təhlükəsizlik Şurasının yuxarıda adı çəkilən Qətnamələrinin icrasının vacibliyini vurğulamışdır.

Göründüyü kimi Ermənistan dövləti BMT və Avropa Şurası qarşısında götürdüyü öhdəlikləri yerinə yetirmir, bu nüfuzlu təşkilatların qərarlarına saymazyana yanaşır və bununla da beynəlxalq hüququn ümumqəbul olunmuş və yerinə yetirilməsi məcburi olan beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipini kobud şəkildə pozur.

Bütün bunlar isə Ermənistan dövlətinə qarşı yuxarıda adı çəkilən beynəlxalq təşkilatlar tərəfindən sanksiyaların tətbiq olunması zərurətini yaradır.

Bir daha bəyan edirik ki, Azərbaycan Respublikasının ərazisində yalnız Azərbaycan Respublikasının qanunları əsasında yaradılmış qurumlar hüquqi statusa malikdir.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununa müvafiq olaraq Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Ombudsman seçilmiş və ölkə ərazisində yaşayan bütün əhalinin, o cümlədən, Dağlıq Qarabağ bölgəsində yaşayan əhalinin hüquqlarının müdafiəsində səlahiyyətlidir.

İnanıram ki, qondarma «Dağlıq Qarabağ Respublikası»nda keçirilən digər «seçkilər» kimi bu «seçkinin» nəticəsi dünya birliyi və insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq, regional və milli qurumlar tərəfindən tanınmayacaq, beynəlxalq hüquq normalarının kobud pozuntusu kimi qiymətləndiriləcəkdir.

Ümidvaram ki, 14 mart 2008-ci il tarixdə BMT-nin Baş Assambleyası tərəfindən qəbul edilmiş «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair» Qətnaməsi icra olunacaq, bununla da beynəlxalq hüquq norma və prinsiplərinə hörmət təmin olunacaqdır.

Professor E.Süleymanova
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman)

**25aprel2008-ci il**